Xalq qəzeti 2021.- 3 iyun.- S.4.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 154** **Bakı şəhəri, 31 may 2021-ci il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən "İcazə Sistemi" haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" 1997-ci il 10 yanvar tarixli 6 nömrəli və "Verildiyi, dayandırıldığı, bərpa və ya ləğv edildiyi barədə vergi orqanlarına məlumat göndərilməli olan icazələrin Siyahısı"nın təsdiq edilməsi barədə" 2016-cı il 24 noyabr tarixli 481 nömrəli qərarlarında dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1997-ci il 10 yanvar tarixli 6 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2002, № 3, maddə 148; 2003, № 8, maddə 460; 2009, № 1, maddə 34; 2017, № 2, maddə 286; 2019 № 1, maddə 153, № 12, maddə 2094 ) ilə təsdiq edilmiş "Azərbaycan Respublikası ərazisində beynəlxalq avtomobil daşımalarını tənzimləyən "İcazə Sistemi" haqqında Əsasnamə"də aşağıdakı dəyişikliklər edilsin:

1.1. 3-cü hissənin birinci və ikinci abzaslarında və 10-cu hissənin ikinci və üçüncü abzaslarında "dövlətlərin nəqliyyat" sözləri "dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat" sözləri ilə əvəz edilsin;

1.2. 3-cü hissənin birinci və ikinci abzaslarında və 10-cu hissənin üçüncü abzasında "dövlət sərhədinin" sözləri "gömrük sərhəd" sözləri ilə əvəz edilsin;

1.3. 4-cü hissəyə "xarici" sözündən sonra "dövlətlərdə qeydiyyatda olan" sözləri əlavə edilsin və həmin hissədə "sərhəddə" sözü "gömrük sərhəd buraxılış məntəqələrində" sözləri ilə əvəz edilsin;

1.4. 5-ci hissənin ikinci abzası aşağıdakı redaksiyada verilsin:

"İcazə blankı" olmayan xarici dövlətdə qeydiyyatda olan avtonəqliyyat vasitəsinin sahibi gömrük ərazisinə daxil olan zaman gömrük sərhəd buraxılış məntəqəsində gömrük orqanına dövlət rüsumunu ödəməklə "İcazə blankı" alır.";

1.5. 10-cu hissənin birinci abzasında "dövlətlərin avtomobil nəqliyyatı" sözləri "dövlətlərdə qeydiyyatda olan avtonəqliyyat" sözləri ilə, həmin hissənin ikinci abzasında "sərhəddə" sözü "gömrük sərhəd buraxılış məntəqələrində" sözləri ilə əvəz edilsin;

1.6. 11-ci hissənin "z)" abzasına "sərhəd" sözündən əvvəl "gömrük" sözü əlavə edisin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 24 noyabr tarixli 481 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 11, maddə 1969; 2018, № 11, maddə 2439) ilə təsdiq edilmiş "Verildiyi, dayandırıldığı, bərpa və ya ləğv edildiyi barədə vergi orqanlarına məlumat göndərilməli olan icazələrin Siyahısı"nın 9-cu hissəsində "dövlətlərin" sözü "dövlətlərdə qeydiyyatda olan" sözləri ilə əvəz edilsin.

**3.** Bu Qərar dərc edildiyi gündən 30 (otuz) gün sonra qüvvəyə minir.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***